**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İDARƏ HEYƏTİNİN**

**Q Ə R A R I**

**№ 32/2**

**Bakı şəhəri**

**31 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2012-ci il 10 iyul tarixli 16/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda dəyişikliklər edilməsi barədə**

Yeni diferensiallaşdırma meyarları üzrə göstəricilərin daha dəqiq anlaşılması və hesablanması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.1.17-ci və 32-ci maddələrinə əsasən

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2012-ci il 10 iyul tarixli 16/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq və təşkilati işlər departamentinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

"Təsdiq edilmişdir"
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 32/2
31 iyul 2024-cü il

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2012-ci il 10 iyul tarixli 16/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda dəyişikliklər**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2012-ci il 10 iyul tarixli 16/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.2.6. əlaqəli depozitlər – aşağıdakı qrupların birinə aid olan bank depozitləri:

1.2.6.1. bir fiziki şəxsə məxsus bir neçə depozit;

1.2.6.2. bir hüquqi şəxsə məxsus bir neçə depozit;

1.2.6.3. hüquqi şəxsin və onda nəzarət zərfinə malik hüquqi və ya fiziki şəxslərin depozitləri;

1.2.6.4. nəzarət zərfi bankın depozitoru olmayan eyni şəxsə məxsus iki və daha çox hüquqi şəxsin depozitləri;

1.2.6.5. hər hansı depozitorun bankda krediti olduqda onun və həmin kredit üzrə birgə və ya subsidiar məsuliyyət daşıyan şəxsin (məsələn, zamin) depozitləri;

1.2.6.6. bankda kreditləri üzrə eyni təminatı təqdim edən iki və ya daha çox şəxsin depozitləri;

1.2.6.7. nəzarət zərfi dövlətə məxsus olan bütün hüquqi şəxslərin depozitləri;";

**2.** aşağıdakı məzmunda 2.5-1–2.5-4-cü bəndlər əlavə edilsin:

"2.5-1. Əlaqəli depozitlər bir neçə qrupa aid edildikdə ümumi məbləği ən yüksək olan qrupun payı götürülməli və hesabata daxil edilməlidir.

2.5-2. Banka aidiyyəti olan şəxslərin depozitlərinin cəmi depozitlərdə (milli və xarici valyutada hüquqi və fiziki şəxslər üzrə) payı hesablanarkən bütün aidiyyəti şəxslər cəm şəklində nəzərə alınmalıdır.

2.5-3. Depozitlər eyni zamanda aidiyyəti şəxsə və əlaqəli depozitlərə aid olduqda, onlar həm əlaqəli depozitlərin cəmi depozitlərdə payının hesablanmasında, həm də banka aidiyyəti olan şəxslərin depozitlərinin cəmi depozitlərdə payının hesablanmasında nəzərə alınmalıdır.

2.5-4. Əlaqəli depozitlərin cəmi depozitlərdə (milli və xarici valyutada hüquqi və fiziki şəxslər üzrə) payı və banka aidiyyəti olan şəxslərin depozitlərinin cəmi depozitlərdə (milli və xarici valyutada hüquqi və fiziki şəxslər üzrə) payı hesablanarkən aşağıdakı depozitlər əlaqəli depozitlərdə və banka aidiyyəti olan şəxslərin depozitlərində nəzərə alınmır:

2.5-4.1. maliyyə institutlarının depozitləri, o cümlədən bankın törəmə maliyyə təşkilatlarının hesabları;

2.5-4.2. loro hesabları;

2.5-4.3. subordinasiya borc öhdəlikləri kimi cəlb edilmiş depozitlər.”.